BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# AZƏRBAYCANIN CƏNUB-ŞƏRQ BÖLGƏSİNİN İCTİMAİ-İQTİSADİ HƏYATINDA LƏNKƏRAN ŞƏHƏRİNİN ROLU (XVI-XVII ƏSRLƏR)

**X.S.QASIMOV, D.M.ƏZİMLİ**
***A MEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***d-azimli @ rambler.ru***

*Təqdim olunan məqalədə Cənub – Şərq regionunun həyatında Lənkəran şəhərinin əhəmiyyəti qeyd olunur. Məlumdur ki, orta əsrlərin sonunda Azərbaycanın iqtisadi münasibətlərində Lənkəran şəhəri mühüm rol oynayırdı və Volqa-Xəzər ticarətində əsas məntəqə sayılırdı. Məqalədə həm də Cənub-Şərq regionuna məxsus digər şəhərlərin də ticarət həyatına toxunulmuşdur.*

Azərbaycanın ictimai-iqtisadi-siyasi həyatında beynəlxalq ticarət yolları üzərində yerləşən Cənub-Şərq bölgəsinin mühüm rolu olmuşdur. Lakin bu bölgənin çoxəsrlik icarət əlaqələri sanballı şəkildə öyrənilməməişdir. Bölgənin iri şəhərlərindən sayılan Lənkəran şəhəri haqqında məlumatlar isə tariximizin orta çaglarına aiddir. Daha doğrusu, şəhər haqqında ilk məlumatlar XII əsrə qədər gedib çıxır.

Lənkəran şəhəri 38 şimal, 40 şərq en dairəsinin kəsişdiyi, Xəzər dənizinin cənub-qərb sahilində, Lənkəran çayının Xəzər dənizinə töküldüyü yerdədir. «Lənkəran» toponiminin mənşəyi, onun mənası indiyədək elmi ədəbiyyatda mübahisə mövzusudur. Həm Avropa və Rusiya səyyahlarnın, həm də keçmiş dövr Azərbaycan coğrafiyaşünaslarının və tarixçilərinin əsərlərində bu şəhər müxtəlif adlarla təqdim olunub, onun adı müxtəlif mənalarda yozulmuşdur. Bu problemlə dərindən məşğul olan Nurəddin Kərəmovun yazdığına görə, XII əsrin görkəmli Azərbaycan şairi Əfzələddin Xaqani (1120-1199) Axstanın Şirvandakı sarayından uzaqlaşmaq məqsədilə Xorasan ziyarətinə gedərkən – 1151-ci ildə Lənkərandan keçmişdir. Şair həmin səfər haqqında «Səfər təfsilatı» şeirində Xəzər dənizinin sahili ilə müasir Lənkəran ərazisindən keçib getdiyini göstərmişdir. N.Kərəmov orta əsr şərqin tanınmış səyyahı, mütəfəkkiri və astronomu, XIV əsrin ikinci yarısı, XV əsri əvvəllərində yaşamış Əbdürrəşid ibn Saleh ibn Nuri əl-Bakuvinin Bakıdan Qahirəyə səfərinin xəritəsini tərtib etmiş və qeyd etmişdir ki, o, öz səfərnaməsində Lənkəranın da adını çəkmişdir (6, 25; 1, 235; 2, 226; 3, 349). Maraqdı məlumatlardan biri də L.Çermenin məlumatıdır. İngiltərə-Moskva ticarət şirkətinin müvəkkili Lorens Çermen (XVI əsr) öz səyahəti zamanı (1568-1569) yazırdı ki, «mən bu ölkənin paytaxtı olan Layqon şəhərini gördüm. Eyni zamanda, Lanqro və Rozar şəhərlərini də gördüm; onlar hal-hazırda şahın nəzarətindədir və onun hakimiyyətinə tabedir. Şəhər əhalisi elə var-yoxdan çıxmışdır ki, onlardan heç biri bir parça mahud almaq iqtidarında deyil. Burada almaq üçün ən yaxşı əmtəə xam ipəkdir. Yay zamanı xam ipək nağd pula satılır. 38 şahıya bir Layqon batmanı həcmində ipək almaq mümkündür. Bu isə 40

funtdan bir qədər artıqdır. Buralarda istənilən miqdarda zəy almaq mümkündür. Bir Təbriz batmanı həcmində zəy bir bistə satlır» (20, 142; 4, 156).

Lənkəranın Xəzər dənizi sahillərində yerləşməsi onun ticarət əhəmiyyətini daha da artırmışdır. Şəhərin Xəzər dənizi vasitəsilə beynəlxalq ticarətdə iştirak etməsi onun iqtisadi bir mərkəz kimi təşəkkül tapmasında ciddi rol oynamışdır. Məlumdur ki, Qərb ölkələri üçün Moskva dövləti vasitəsilə Asiya istiqamətində ticarət daha əlverişli idi. Bu dövlətlərin Volqa çayı və Xəzər dənizi vasitəsilə ticarətində Təbriz-Ərdəbil-Lənkəran-Bakı yolundan istifadə olunurdu. XVI-XVII əsrlərdə Şimal dəniz yolu-Xəzər dənizi vasitəsilə İran-Hindistan ticarət yolu daha mühüm əhəmiyyət kəsb etdi. Bunun nəticəsində okean ticarətindən kənarda qalmış Avropa dövlətlərinin tacirlərinin şimaldan Şirvan yolu ilə Təbrizə axını üçün şərait yarandı (9, 136-143; 7, 116; 10, 64-67). Bu ticarətdə Lənkəranın da xüsusi rolu var idi.

Azərbaycan Səfəvi dövlətinin vaxtında müəyyən bir dövrdə Şirvan və qiymətli Gilan ipəyi əsasən Təbriz vasitəsilə digər ölkələrə, o cümlədən Avropaya aparılırdı. Lənkəranın iqtisadi cəhətdən Gilanla bağlı olmasını nəzərə alsaq, Gilandan ixrac olunan ipəyin miqdarında onun da xüsusi payı olmuşdur. Qeyd etmək lazımdır ki, həmin dövrdə Avropa sənaye manufakturalarının xammala, xüsusilə ipəyə, pambığa, dəriyə böyük ehtiyacı var idi. Bunların alış və satış bazarı Təbrizdə cəmləşirdi. Təbriz Şərqin ən böyük toxuculuq şəhəri idi. Bu barədə XVI əsrin I yarısında Səfəvilər dövləti ərazisində olmuş venesiyalı tacir M.Membre də öz «Səyahətnamə»sində geniş məlumat vermişdir. O, göstərir ki, Səfəvilər dövründə Təbrizdə sənətkarlıq sahələri içərisində toxuculuq özünün yüksək inkişaf mərhələsinə çatmışdı (9, 136-143; 7, 116; 10, 64-67; 5, 9).

Bu məlumatlarda Lənkəranın adı birbaşa çəkilmir, lakin yuxarıda qeyd etdiyimiz kimi Gilanın əhəmiyyəti xüsusi vurğulanır. Bir daha xatırladaq ki, Lənkəran əyaləti inzibati cəhətdən Gilana tabe idi. Bu isə o deməkdir ki, Gilan ticarətini Lənkəran əyalətindən kənar təsəvvür etmək mümkün deyildir. Doğrudur, Lənkəran əyalətinin Gilan ticarətindəki çəkisini müəyyənləşdirmək bizim üçün çətindir, lakin mənbələrdə verilən məlumatlardan aydın olur ki, Lənkəranın bu ticarətdəki çəkisi kifayət qədər idi.

Azərbaycanın Qərbi Avropa ilə ticarət əlaqələrində Moskva tacirləri də mühüm rol oynayırdılar. Moskva tacirləri Qərbi Avropaya xam ipək, ipək parçalar, Hindistandan daxil olan ədviyyat daşımaqla yanaşı Azərbaycan neftini də aparırdılar. Bu barədə XVI əsrə dair «Ticarət kitabları» nda məlumatlar vardır. Həmin kitablara əsasən belə bir nəticəyə gəlmək olar ki, neft Moskva tacirləri vasitəsilə Şirvandan Qərbi Avropaya daşınırdı. Şamaxıya Xəzər dənizi vasitəsilə gələn rus tacirləri Muğan düzünü keçib Cavad şəhərinə daxil olur, oradan isə Ərdəbilə gedirdilər. Onlar Ərdəbildən iki istiqamətdə hərəkət edirdilər. Bu yollardan biri Təbrizə gedirdi. Digər yol Cənub-Şərq istiqamətindəki yol idi ki, Qəzvinə və Kaşana istiqamətlənirdi. Həmin dövrdə bu şəhərlərdə qızğın ticarət gedirdi. Qəzvində və Kaşanda müxtəlif növ ipək parçalar, ədviyyat, mirvarı və qiymətli daş-qaşlar olurdu. Kaşan həm də böyük sənətkarlıq mərkəzi idi. Bu şəhər hələ qədim dövrlərdən özünün gil və mis məmulatı, ipək toxuculuq sənayesinə görə fərqlənirdi. Təbrizə daxil olan rus tacirləri oradan Osmanlı imperiyası ərazilərinə də gedirdilər. Rus tacirləri Azərbaycan və İran ərazilərindən hərəkət edərək Hörmüzə də gedib çıxırdılar. Məlum olur ki, Hörmüz uzun illər ərzində Hindistanın Avropa və Yaxın Şərq ilə ticarətində xüsusi rol

oynamışdır. Bununla belə, XVI əsrdə rus tacirlərinin ticarət fəaliyyəti əsasən Azərbaycanın Şamaxı, Təbriz, Qəzvin şəhərlərində, Kaşanda və digər şimal şəhərlərində cəmləşmişdi (23, 26-27).

Moskva dövləti Yaxın Şərq ölkələri ilə Volqa–Xəzər marşrutu vasitəsilə ticarət edirdi. Portuqaliya dəniz yolları, Venesiya və Fransa Osmanlı əpaziləri, İngiltərə isə öncə Moskva dövləti, sonra isə İran körfəzi vasitəsilə Şərqlə ticarət əlaqələri saxlayırdı. Müəyyən dövrdə Hollandiya da Şərqlə ticarət əlaqələrinə daxil olurdu. Moskva dövləti əraziləri ilə müəyyən zaman ayrıclarında Hollandiya da Şərqlə ticarət əlaqəlrinə girirdi. Bu ticarət əlaqələrində başlıca yeri ipək məmulatı və xam ipək tuturdu. XVI əsrdə Moskvada yaşayan ingilis səfiri Cils Fletçer özünün qeydlərində Azərbaycanın Moskva dövləti ilə ticarət əlaqələrində xam ipəyin rolunu xüsusi olaraq qiymətləndirirdi. O, yazırdı ki, bu məhsul Azərbaycanın Şamaxı və Dərbənd şəhərlərində daha çox idi. Azərbaycanı «Midiya» adlandıran bu səfir yazır ki, «Həştərxan çarlığının yaxınlığında  Şelkalı (Shelcal) və Midiya yerləşir. Oraya rus tacirləri gedirlər ki, xam ipək, tumac (dəri) və digər məhsullar alsınlar. Midiyada rus tacirlərinin ticarət etdikləri əsas şəhərlər Dərbənd və Şamaxıdır. Orada xam ipəyin saxlanıldıgı anbarlar vardır». XVI əsrin II yarısından başlayaraq Qərbi Avropa və Moskva dövləti ilə səfəvilər arasında ticarətin artması bir tərəfdən səfəvilərin yaranmış iqtisadi böhrandan çıxış yolu kimi bu istiqamətə üstünlük vermələri ilə bağlı idisə, digər tərəfdən XVI əsrdə bu istiqamətdə siyasi vəziyyətin dəyişməsi ilə bağlı idi. Moskva çarı IV İvan Qroznının (1547-1584) apardığı işğalçılıq siyasəti nəticəsində Kazan (1552) və Həştərxan (1556) xanlıqları Moskva dövlətinin ərazilərinə qatıldı. Beləliklə, Moskva dövləti Volqa çayına (İtil çayına) çıxmaqla Şərq ticarətinə birbaşa çıxış əldə etdi. Bu yolla Xəzər dənizi vasitəsilə Səfəvilərlə birbaşa əlaqə saxlamaq mümkün idi (18, c.1, 269; 11, 32-33; 13, 109-110, 100-101;  19, 131; 11, 5).

Moskva dövlətinin Azərbaycan Səfəvi imperiyası ilə  əlaqəsində Lənkəranın da rolu önəmli idi. Bundan əlavə, kürü ticarətində həmin şəhərin xüsusi rolu var idi. Lənkəranda balıqçılığın qədim bir sahə olması buna sübutdur. Bu əyalətdə balıqdan hal-hazırda da 72 növ yeməklər bişirilir.

XVI əsrdə Təbriz tacirləri Volqa-Xəzər ticarət yolundan istifadə edərək Mərkəzi və Qərbi Avropa ölkələri, o cümlədən İngiltərə ilə ticarət əlaqələrini genişləndirdilər. Moskva ilə İsfahan-Qəzvin-Rəşt-Astara-Lənkəran-Bakı-Dərbənd-Həştərxan yolundan başqa Təbriz-Muğan çölü-Şamaxı-Şabran-Niyazabad-Həştərxan ticarət, karvan yolu əsas tranzit yolu hesab olunurdu. Moskva ilə Azərbaycan-İran ticarətində əsas mərkəzlər Təbriz və Şamaxı şəhərləri idi (9, 143; 13, 108; 15, 40).

Azərbaycanın iri şəhərləri XVII əsrdə canlı xarici ticarət aparırdılar. Ticarət yollarındakı çətinliklərə və təhlükələrə baxmayaraq, həmin dövr Təbriz, Ərdəbil, Lənkəran, Şamaxı, Bakı, Yeni Culfa və digər şəhərlərin tacirlərini dünyanın bütün yerlərində, o cümlədən Asiya və Avropa ölkələrində görmək mümkün idi. Səfəvilər dövlətinin ərazilərinə xeyli sayda əcnəbi tacir gəlirdi (12, 66-67). Onlara yerli tacirlərin malik olduqları hüquqlar verilirdi. Bu məsələyə toxunmuş alman səyyahı Adam Oleari Azərbaycanda olan əcnəbi tacirlərin malik olduqları hüquqları Moskva dövlətində olan vəziyyətlə müqayisə edərək yazır ki, "Moskva çarlığında əcnəbi tacirlərin giriş və çıxışı çar hakimiyyəti tərəfindən nizamlanır. Səfəvilər dövlətinin ərazilərində isə ticarət yolları bütün əcnəbi tacirlərin üzünə açıqdır: onlar heç bir

maneə olmadan bu dövlətə öz mallarını gətirə və bu dövlətdən yerli malları apara bilərlər. Buna görə sadəcə olaraq vergi ödəmək lazımdır" (17, 791).

XVII əsrdə Azərbaycanın Moskva dövləti istiqamətində Avropa ilə ticarət əlaqələri başlıca olaraq Arxangelskdə cəmlənmişdi. Səfəvilərin oraya ixracatında-eksportunda başlıca yeri ipək, daha çox isə Moskva və Avropada yüksək qiymətləndirilən Gilan ipəyi tuturdu (bu əyalət, demək olar ki, ipək məhsullarının 50%-ni verirdi). Bu sırada sonrakı yerləri Mazandaran, Xorasan, Şirvan və Gürcü knyazlığı tuturdular (19, 130, 131).

XVII əsrin əvvəllərindən başlayaraq, səfəvilərlə osmanlılar arasında hökm sürən sabit münasibətlər Azərbaycanın Avropa ölkələri ilə ticarət əlaqələrinin inkişafına ciddi təsir göstərdi. Bu sabitlik səfəvilərin Aralıq dənizi limanları vasitəsilə Avropa ölkələri, o cümlədən Venesiya, Genuya və digər ticarət şəhərləri ilə yenidən ticarət etməsinə şərait yaratdı. Səfəvilərin iqtisadi sistemində böyük irəliləyişlər baş verdi. İpək istehsalında ciddi nəticələr əldə olundu. Bunu sübut etmək üçün XVII əsrdə Səfəvilər dövləti ərazilərində ipəyin istehsalı ilə bağlı Azərbaycana gəlmiş A.Oleari və J.Şardenin verdiyi məlumatları müqayisə etmək kifayətdir. Məsələn, A.Olearinin məlumatlarında göstərilir ki, 1638-ci ildə aşağıdakı əyalətlər üzrə bu qədər ipək istehsal olunurdu: Gilan-1.728000 kq, Mazandaran-432.000 kq, Xorasan-648.000, Qarabağ-432.000 kq, Şirvan-648.000 kq. Ümumi istehsal isə 3.888.000 kq təşkil edir. J.Şardenin məlumatında isə bu rəqəmlər 22 ildən sonra, yəni 1660-cı ildə belə dəyişir: Gilan-2.760.000 kq, Mazandaran-552.000 kq, Xorasan-828.000 kq, Qarabağ-552.000 kq, Şirvan-828.000 kq. Ümumi istehsal isə 5.520.000 kq həcmində idi (24, 52-53).

Bu siyahıdan məlum olur ki, XVII əsrdə bütün ipək istehsalının 50%-i həqiqətən də Gilanda cəmlənmişdi. Gilan ticarətində isə Lənkəran əyalətinin xüsusi yeri var idi.

Həmin dövrdə ticarətdə ən mühüm alqı-satqı vasitələrindən biri də minik və yük heyvanları idi. O dövrə aid olan ədəbiyyat və mənbələrdə göstərilir ki, Azərbaycanın həmin dövrdə ticarət tərəfdaşları və Osmanlı imperiyası bu ticarətə xüsusi əhəmiyyət vermişlər. Həmin dövrdə bacarıqlı çaparlar və hərbi Azərbaycan atları Marağada, Mərənddə, Qarabağda və Muğanda hazırlanırdı. Onlar Osmanlı imperiyasında baha qiymətə satılırdı. Bununla bağlı olaraq J.Şarden göstərir ki, hər bir çaparın qiyməti 1000 frankla 1000 ekyu arasında idi. Bu ticarət şah SArayının inhisarındaydı. Hər il Azərbaycandan Osmanlı imperiiyasına xeyli sayda dəvə ixrac edilirdi (21, 180). Tarixi məlumatlar sübut edir ki, Muğanda və Lənkəranda da çoxlu minik heyvanları saxlanılırdı və onlar satışa çıxarılırdı.

Lənkəran əyalətinə dair məlumatlara daha çox XVII əsrdə təsadüf olunur. Bu isə Lənkəran əyalətinin həmin əsrdə bir tərəfdən iqtisadi cəhətdən inkişafı ilə bağlı idisə, digər tərəfdən onun tranzit ticarətində oynadığı rolu ilə bağlı idi. XVII əsrdə Lənkərana gəlmiş diplomatların sayı xeyli artmışdı. Bunlardan biri də Almaniyanın Azərbaycan Səfəvi dövlətindəki səfiri Stefan Kakaş fon Zalokemen idi. O, 1602-ci ildə alman imperatoru II Rudolfun Hamburq səfirliyindən Şah I Abbasın sarayına, İsfahana və Təbrizə göndərilmiş, Həştərxandan dənizlə yola çıxmış, gəmi ilə bir ay davam etmiş səfərində fırtınaya düşmüş, xəstələnmişdi. 1603-cü ilin avqust ayının 8-də Lənkərana gətirilmişdi. O zaman səfirliyin digər nümayəndələri öz qeydlərində Lənkəranı «Lyanqaran» şəklində qeyd etmişlər. Həmin vaxt Kakaşla birlikdə onun

katibi Tektander də Lənkəranda olmuşdur. O, 10 həftəyə qədər Lənkəranda-Lənkon kəndində (indiki Sərdaxılın yerində) qaldıqdan sonra Təbrizə gəlmiş, Şah I Abbasın qəbulunda olmuş, şaha Lənkərana düşmələri və burada səfir Kakaşın üç köməkçisi ilə birlikdə vəfat etmələri və onların Lənkəranda dəfn olunmaları haqqında məlumat vermişdir. O, Şah I Abbasın yanından qayıtdıqdan sonra (8 yanvar 1605-ci ildə) II Rudolfa yazdığı izahatında Lənkəranda olmaları haqqında məlumat verərək bu yerlərin gözəlliyini və xoşagəlimliyini təsvir etmiş və yazmışdır ki, Lənkəran dənizə yaxın olduğu üçün iqlimi çox isti və qeyri-sağlamdır, burada üzüm və başqa meyvələr çox bitir, üzümü dərib çiy yeyirlər. Tektander onun üçün «dadsız» olan qoyun əti və «düyü çörəyi» yediyindən söhbət açır. O, göstərir ki, «iranlılar» (azərbaycanlılar-D.Ə.) şərab çəkməyi bacarmır, içməyi isə heç bilmirdilər (6, 25-26; 8, 54-58).

Lənkəranda olmuş səyyahlardan biri də İvan Brexovdur. O, Moskva dövlətinin zadəganlarından idi, əslən kazanlı idi, 1614-1615-ci illərdə o, Stepan Afanasyevlə birlikdə «İrana» gəlib səfirlikdə M.N.Tixonov və A.Buxarovun taleyi ilə maraqlanmağı qarşısına məqsəd qoymuşdur. 23 iyul 1614-cü ildə J.Brexov və S.Afanasyev Moskvadan çıxıb Şamaxıya (16-18 oktyabrda) gəlmişdi. 23 oktyabrda onlar Şah I Abbasın Tiflisdən 50 verst aralıda yerləşən düşərgəsində olmuş, 26 oktyabrda Şah I Abbasla söhbət etmiş və oradan Qızılağaca qədər gəlmişdilər. Qızılağacda M.N.Tixonovun nümayəndəliyi ilə birləşib birlikdə dekabrın sonlarında Lənkərandan geriyə qayıtmışlar. İvan Brexovun qeydlərində göstərilir ki, 26 dekabrda Şah Qızılağacdan Lyanqarana getdi, onunla birlikdə dövlət nümayəndələrindən Mixaylovla birlikdə Lyanqarana gəlməyi tapşırdı. 27 dekabrda onlar Şahın ardınca Lyanqarana gəldilər. Moskva dövlət zadəganı Mixail Nikitiç Tixonov 1613-1614-cü illərdə səfir kimi Aleksey Buxarovla birlikdə Şah I Abbasın yanına gedərkən, 1613-cü ilin 19 dekabrında Qızılağacda olmuş, Şah I Abbas tərəfindən səfirlikdə qəbul edilmişdir. Həmin günlərdə o, Şah I Abbasla Lənkərana gəlmişdi. Rus zadəganı XVII əsrin məşhur kilsə xadimi Artemiy Suxanov IV kitabının 5-ci fəslinin «Rəştdən Qızılağaca qədər və Gilan vilayətinin sonuna kimi» (1638-ci il) bölməsində həmin səfər haqqında bəhs edir və Gilandan qayıdan zaman bir neçə yerdə Lənkəranın adını çəkir. Səfərini təfsilatı ilə təsvir edən kilsə xadimi Lənkəran əyalətində bir sıra yaşayış məntəqələrinin adını göstərir və onlar haqqında məlumatlar verir (6, 25-27).

Azərbaycan haqqında son dərəcə maraqlı məlumatlar qoyub getmiş Avropa müəlliflərindən biri də almanəsilli Adam Olearidir. A.Olearinin daxil olduğu Holştiniya səfirliyi 1636-1638-ci illərdə Moskvadan Volqa-Xəzər yolu ilə Azərbaycana gəlmiş, buradan isə Səfəvi sarayına-İsfahana getmişdi. Geri qayıdarkən elçilərin yolu yenidən Azərbaycandan düşmüşdü. Beləliklə, Səfəvi sarayna gedib qayıdarkən Oleari Azərbaycanın Niyazabad, Şamaxı, Cavad, Ərdəbil, Qızılağac kimi yaşayış məntəqələrində, Muğanda olmuş, tarixi keçmişimizə, xalqımızın həyat tərzinə aid olan zəngin material toplamışdı (8, 63-64).

Lənkərana gəlmiş səyyahlardan biri də Yan Streys idi. O, hollandiyalı məşhur dəniz səyyahıdır. Y.Streys1668-ci ildə Moskvaya xidmətə gəlmiş, Xəzər dənizində ticarətlə məşğul olmaq üçün Volqada təşkil edilmiş gəmiqayırma tərsanəsində çalışmışdır. Y.Streys yenicə hazırlanmış gəmidə Həştərxana gəlmiş, burada kəndlilərin üsyan rəhbəri Stepan Razinlə görüşmüşdü. O zaman Həştərxan şəhəri üsyançıların əlində idi. Görüş zamanı S.Razin ona Lənkəran haqqında da danışmışdır. S.Razinin söylədiyinə görə, iki il bundan öncə özünün yeddi nəfər nümayəndəsini Səfəvi

dövlətinə göndərmiş, şahdan onunla ittifaq bağlamağı və lazımi hərbi ləvazimatı almağı xahiş etmişdi. Lakin kazaklar Fərabadı və Lənkəranı dağıtdıqları üçün Astrabadda həmin nümayəndələri pis qarşılamışlar. Hətta qəzəblənmiş Şah elçiləri cəzalandırmışdı (6, 26).

Yan Streysin digər məlumatlarından aydın olur ki, onun ölkəsi Azərbaycanla sıx ticarət əlaqələrinin olmasında maraqlıdır. 1580-ci ildə İspaniya və Portuqaliyadan ayrılaraq öz müstəqilliyni elan etmiş bu dövlət XVII əsrdə "nümunəvi kapitalist ölkəsi"nə çevrildi, "1648-ci ildə özünün ticarət zirvəsinin ən yüksək nöqtəsinə çatdı". 1623-cü ildə Səfəvilər dövləti ərazisinə (cənubdan) çıxmış hollandlar artıq XVII əsrin ortalarında Səfəvi bazarında birinci yeri tuturdular. Bununla əlaqədar olaraq Y.Streys göstərir ki, Şərqin hər yerində bizim tacirlərə rast gəlmək mümkündür. O, böyük razılıq duyğusu ilə bildirir ki, «Qombrunda (Bəndər Abbasda–red.) bizim tacirlər bütün qəbul edilən tacirlərdən üstündürlər və Səfəvi şahı holandlara iri həcmdə ticarət apardıqlarına görə müttəfiq və dost kimi yanaşır». Bu baxımdan onun Səfəvilər dövləti ərazilərində yerli tacirlərlə etdiyi söhbətlər maraqlıdır. Həmin söhbətlərdən məlum olur ki, Hollandiyadan Xəzər dənizi vasitəsilə Səfəvilər dövlətinin ərazilərinə qalay, sink, civə, mahud, atlas və s. holland malları gətirib Dərbənddə, Şamaxıda və Ərdəbildə çox sərfəli qiymətlərə satmaq olar. Bunun üçün də Səfəvilərin bütün ipək ticarətini Hollandiyaya istiqamətləndirmək lazımdır. Bu istiqamətdə isə ən sərfəli yol Xəzər dənizi, Volqa çayı vasitəsilə Arxangelskdən keçən ticarət marşrutudur. Bu marşrutla hər il Gilan, Şirvan və digər Xəzərsahili şəhərlərdən 30 min tay ipək daşımaq olar (14, 134-148; 22, 337-342, 232).

Beləliklə, müxtəlif səyyahların gündəlikləri və tarixi qaynaqlar sübut eir ki, XVI əsrdən başlayaraq Azərbaycanın iqtisadi həyatında özünəməxsus yer tutmuş Lənkəran əyaləti artıq XVII əsrdə mühüm iqtisadi-ticarət mərkəzlərindən birinə çevrilmiş, tranzit ticarətində bənzərsiz mövqe tutmuşdur. Bu ərazilərdə məhsuldarlıq artmış və XVII əsrdə bütün Azərbaycan Səfəvi dövləti ərazilərində olduğu kimi, bu bölgə də iqtisadi dirçəliş dövrünü yaşamışdır.

## ƏDƏBİYYAT

### Azərbaycan dilində:


1. Azərbaycan arxeologiyası (orta əsrlər). 6 cilddə. VI c., Bakı: Şərq-Qərb, 2008, 629 s.
2. Azərbaycan Milli Ensiklopediyası. Azərbaycan. Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, 883 s.
3. Azərbaycan tarixi (XIII-XVIII əsrlər). 7 cilddə, III c., Bakı: Elm, 2007, 592 s.+56 illüstrasiya.
4. Azərbaycan toponimləri. Ensiklopedik lüğəti. 2 cilddə, II c., Bakı: Şərq-Qərb, 2007, 304 c.
5. Əlibəyzadə Elməddin. Azərbaycanşünaslığa giriş. Bakı: Ozan, 2010, 856 c.
6. Hüseynbalaoğlu B., Talışlı M. Bakı: Lənkəran 1990, 512 s.
7. Quliyev Əhməd. XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətində sənətkarlıq istehsalı (Mikel Membrenin «Səyahətnamə»si əsasında) / Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu və Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin təsis etdiyi «Şah İsmayıl Xətai» qrupunun birgə keçirdiyi IV elmi-praktiki konfransın materialları. Bakı: 2007, s.116-120.
8. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: Gənclik, 1980, 120 s.
9. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, 280 s.

**Rus dilində:**

10. Ашурбейли С.Б. Баку в XVI-XVIII вв. по описанию путешественников // Изв. АН Азерб. ССР, 1947. №1, с. 63-72.
11. Ашурбейли С. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку: Элм, 1990, 149 с.
12. Гейдаров Микаил. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Баку: Елм, 1999, 168 с.
13. Гусейнов А. Азербайджано–русские отношения XV–XVII веков. Баку: Академия Наук Азербайджанской ССР, 1963, 238 с.
14. Зевакин Е.С. Персидский вопрос в русско-европейских отношениях // Исторические записки. 1940, №8, с. 129-162.
15. Куканова Н.Г. Очерки по истории русско - иранских торговых отношений в XVII - первой половине XIX века. Саранск: Морд. кн. изд-во, 1977, 286 с.
16. Котов Федот Афанасьевич. Хождение купца Федота Котова в Персию / Ответственный редактор А.А.Кузнецов. М.: Восточная литература, 1958, 109 с.
17. Олеарий Адам. Подробное описание путешествия голиштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 гг. (пер. с нем. об-во истории и древностей Российских при Моск. Ун-те). М.: Ун-тская типография, 1870, 1033с.
18. Петрушевский И.П. Государство Азербайджана XV века. Азербайджан в XVI-XVII веках / Сборник статей по истории Азербайджана. Выпуск I. Баку: АН Азербайджанской ССР, 1949, 310 с.
19. Полиевктов М.А. Европейские путешественники XIII–XVIII вв. по Кавказу. Академия Наук СССР. Тифлис: Научно-исследовательский институт Кавказоведения имени академика Н.Я.Марра, 1935, 222 с.
20. Путешественники об Азербайджане. Том. I / Под. ред. Э.М.Шахмалиева. Баку: Академия Наук Азербайджанской ССР, 1961, 499 с.
21. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы). Баку: Элм, 1981, 237 с.
22. Стрейс Я.Я. Три путешествия. Перевод Э.Бородиной / Под. ред. А.Морозова. М.: Огиз–Соцэкгиз, 1935, 415 с.
23. Фехнер М.В. Торговля русского государства со странами Востока в XVI веке. М.: Госкультпросветиздат, 1956, 120 с.

**İngilis dilində:**

24 Seyf Ahmad. Silk Production and Trade in Iran in the Nineteenth Century // Iranian Studies., Journal of the society for Iranian Studies, Winter-Spring, 1983, Numbers 1-2, Volume XVI, p. 51-71.

## РОЛЬ ГОРОДА ЛЕНКОРАНЬ В ОБЩЕСТВЕННО-ЭКОНОМИЧЕСКОЙ ЖИЗНИ ЮГО-ВОСТОЧНОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА (XVI-XVII ВВ)

**Х.С.ГАСЫМОВ, Д.М.АЗИМЛИ**

**РЕЗЮМЕ**

В статье представлена важность изучения роли города Ленкорань в жизни юго-восточного региона Азербайджана. Как известно, в конце средних веков важную роль в экономических отношениях Азербайджана играл город Ленкорань. Город стал одним из главных пунктов в Волжско-Каспийской торговле. В статье авторы коснулись также вопросов торговой жизни других городов указанного региона.

# THE ROLE OF THE CITY OF LANKARAN IN THE SOCIAL - ECONOMIC LIFE OF THE SOUTH - EASTERN REGION OF AZERBAIJAN (XVI-XVII CENTURIES)

**K.S.GASIMOV, D.M.AZIMLI**

**SUMMARY**

The article presents the importance of studying the history of the city of Lankaran in the life of South-Eastern region. As it's known , at the end of the Middle Ages Lankaran was of great importance in the economic relations of Azerbaijan and became one of the main points in the Volga-Caspian trade. The article reflects trade lives of other cities of the South-Eastern region as well.